**Dövlət Statistika Komitəsi nümayəndələrinin Gürcüstan Respublikasının Tbilisi şəhərində "Statistikada keyfiyyət məsələləri: metaməlumatlar" mövzusunda təşkil edilmiş seminarda iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini R.Səlimov və Keyfiyyətin idarə olunması və informasiya texnologiyaları şöbəsinin müdiri Y.Yusifov Avropa İttifaqının Statistika Bürosunun (Avrostat) 27-29 iyun 2012-ci il tarixdə Gürcüstan Respublikasının Tbilisi şəhərində "Statistikada keyfiyyət məsələləri: metaməlumatlar" mövzusunda təşkil etdiyi Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələri üçün yüksək səviyyəli seminarda iştirak etmişlər.




Tədbirdə Rusiya Federasiyası istisna olmaqla bütün MDB ölkələrinin statistika təşkilatlarının hər birindən 2 nəfər, mövzular üzrə məruzə etmək üçün Avrostat, BMT-nin Avropa İqtisadi Komissiyası, Avropa Azad Ticarət Assosiasiyası, Latviya, Litva, Niderland, İtaliya, Norveç və Türkiyədən mütəxəssislər dəvət olunmuş, ümumilikdə iştirakçıların sayı 37 nəfər təşkil etmişdir.

Tədbiri giriş sözü ilə açan Avrostatın "Statistik əməkdaşlıq" bölməsinin rəhbəri xanım K.Yunker cari seminarın əvvəlki dövrlərdə aparılmış tədbirlərlə əlaqəsi, keyfiyyətin təmin olunmasının əhəmiyyəti, seminarın gündəliyi və gözləntilər haqqında qısa məlumat vermişdir.

Seminar keyfiyyətin idarə olunması, metaməlumatlar və əməkdaşlıqla bağlı mövzuları əhatə edən mövzular üzrə 8 sessiyada qruplaşdırılmışdır.




İlk sessiya Avrostatda keyfiyyətlə bağlı əldə edilmiş son nailiyyətlər mövzusunda BMT AİK-nin Statistika şöbəsinin məsləhətçisi Q.Qamezin sədrliyi ilə keçirilmişdir. Mövzu üzrə çıxış edən Avrostatın nümayəndəsi keyfiyyət məsələləri, Avropa statistikası normalar məcəlləsi, keyfiyyətin qiymətləndirilməsi üzrə proqram, keyfiyyətə xüsusi nəzarət, keyfiyyət üzrə məruzələr haqqında məlumat vermişdir.

Tədbirin ikinci günü, növbəti sessiyada ayrı-ayrı ölkələrdə keyfiyyətin təmin olunması ilə bağlı əsas prinsiplərin həyata keçirilməsində əldə olunmuş nailiyyətlər

haqqında Türkiyə, Ermənistan, Özbəkistan və Azərbaycan tərəfinin çıxışları olmuş və çıxışları olmayan ölkələr dəyirmi masa ətrafında öz təcrübələri haqqında məlumat vermişlər. Türkiyə Respublikasının nümayəndələri tərəfindən məlumat verilmişdir ki, 2010-cu ildən statistik proseslərin və standartların, 2011-ci ildən isə metaməlumatlar sisteminin öyrənilməsinə başlanılmış, cari ilin fevral ayından isə məlumatların praktiki olaraq formalaşdırılması həyata keçirilmişdir. Ermənistan statistikinin çıxışında təşkilat haqqında ümumi informasiya, əsas funksiyalar, hüquqi əsaslar, beynəlxalq təsnifatlar və standartlar haqqında məlumat verilmişdir. Özbəkistandan olan əməkdaş keyfiyyətin təmin olunmasında əsas faktor kimi normativ –hüquqi bazanın təkmilləşdirilməsi sahəsində ölkə təcrübəsi haqqında məlumat verilmişdir. Bu sessiyada "Azərbaycanın rəsmi statistikasında keyfiyyətin təmin olunması məsələləri: konseptual yanaşma" mövzusunda nümayəndələrimiz tərəfindən təqdimat keçirilmişdir. Təqdimatda keyfiyyətin təmin olunmasının baza prinisplərinə uyğun olaraq statistik sistemin, institusional mühitin, statistika proseslərinin və məhsulların idarə olunması ilə bağlı məlumat verilmiş, hər bir prinsip üzrə əsas məqamlar iştirakçıların diqqətinə çatdırılmışdır.

3-cü sessiya statistikada metaməlumatların rolu ilə bağlı olmuş, burada metaməlumatlara ayrıca fəaliyyət kimi deyil, statistika məhsulunun ayrılmaz tərkib hissəsi kimi baxılması, istehsalçı və istifadəçi üçün metaməlumatların növləri, standartlar, metaməlumatın strukturu və s. bağlı məruzələr olmuşdur.

Növbəti sessiyada Norveç statistikasından olan ekspert metaməlumatların hazırlanması və onun veb səhifədə yerləşdirilməsi ilə bağlı məruzə etmişdir.

Tədbirin ikinci günü üzrə verilmiş təcrübələrin ölkəmizdə olan vəziyyətlə müqayisəsi göstərmişdir ki, istiqamətin düzgün müəyyənləşdirilməsi üçün nəzəri biliklərin əldə edilməsi, metaməlumatlara ayrıca fəaliyyət kimi deyil, statistika məhsulunun ayrılmaz tərkibi kimi baxılması, "Metaməlumatlar konsepsiyası, standartlar, modellər və registrlər", "Metaməlumat və statistik proseslər", "Metaməlumatların tətbiqi" haqqında metodoloji materialların ölkə xüsusiyyətlərinin nəzərə alınması şərtilə milli versiyalarının hazırlanması, informasiya texnologiyalarının tətbiqinin daha sürətləndirilməsi və genişləndirilməsi vacibdir.

Tədbirin sonuncu günü Azərbaycanın sədrliyi ilə keçən 5-ci sessiyada statistik metaməlumatlar sisteminin işlənməsi prosesləri, onun tətbiqi ilə bağlı ölkə təcrübələri haqqında məlumat verilmişdir. Türkiyədən olan ekspert metaməlumatların yayılması sahəsində olan təcrübə haqqında məruzə edərək bildirmişdir ki, statistika qurumu ilə yanaşı, statistika məlumatlarının istehsalçıları olan digər təşkilatların da metaməlumatları istehsal etməsi zəruridir.

Altıncı sessiya statistik məlumatların və metaməlumatların mübadiləsi məqsədilə istifadə olunan standartlarla bağlı olmuş, İtaliya təcrübəsi haqqında məlumat verilmişdir. Məruzəçi bu sahədə ən geniş yayılmış standart- SDMX formatı haqqında məlumat vermiş, onun idarə olunması, məqsədi, üstünlüyü ilə bağlı fikrini bildirmişdir.

Yeddinci sessiya əməkdaşlıq məsələlərinə həsr olunmuşdur. Qlobal qiymətləndirmə - fəaliyyətlər, gələcək planlar və 2013-cü ildə keçiriləcək tədbirlər haqqında məlumat verilmişdir. 2010-2011-ci illərdə aparılmış qlobal qiymətləndirmənin nəticələrinə görə məlum olmuşdur ki, müşahidə aparılmış bütün ölkələrdə statistika təşkilatları peşəkar müstəqillik və məlumatların toplanması üçün

səlahiyyətlər baxımından əsas etibarilə müsbət qiymətləndirilmiş, resursların adekvatlığı, keyfiyyətin təmin olunmasına sistematik yanaşma daha zəif təşkil olunmuşdur.

Yeddinci sessiya çərçivəsində həmçinin Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiya ölkələrində energetika statistikası sahəsində əməkdaşlıq mövzusunda tədqiqat gedişlərinin nəticələri, layihənin qısa təsviri və gələcək fəaliyyətlər haqqında məlumat verilmişdir.

Səkkizinci sessiya seminarın yekunu, əsas nəticələr, növbəti seminarın mövzusu ilə bağlı olmuşdur. Növbəti sessiya ilə bağlı bir sıra mövzular, o cümlədən məlumatların yayılması, metaməlumatlar sistemində İKT-nin rolu irəli sürülmüşdür. Tədbirin sonunda Gürcüstan Respublikasının statistikası haqqında əlavə məlumat verilmişdir.